*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 218-224*
https://doi.org/10.62837/2024.5.218

**PƏRVANƏ ELMAR QIZI QULIYEVA**
**Gəncə Dövlət Universiteti**
pervane.quliyeva73@gmail.com

# XALQ DİLİNİN OBRAZLI İFADƏSİNDƏ ATALAR SÖZÜ VƏ MƏSƏLLƏRİN ƏHƏMİYYƏTİ

**Açar sözlər:** ədəbiyyat, təfəkkür, xüsusiyyət, milli, folklor, atalar sözü, məsəllər, ədəbi dil, yaradıcılıq, bədiilik.
**Ключевые слова:** литература, мышление, свойство, национальное, фольклор, пословица, пословицы, литературный язык, творчество, художественность.
**Key words:** literature, thinking, characteristic, national, folklore, proverb, proverbs, literary language, creativity, artistry.

Əqli nəticənin bir təzahürü də hikmətli sözlərdir. Onlar dilimizdə bitmiş cümlələr şəklində olur. Hikmətli sözlər emosional xüsusiyyətə malikdir: fikrin məzmununu dolğunlaşdırır, onların ömrü uzun olur: müxtəlif struktura, fərqi quruluş cizgilərinə malik olur: tərkibinə həmcins üzvlərə, nidalara, ara sözlərə, xüsusiləşmiş üzvlərə, təsadüf edilmir: didaktik səciyyə güclüdür, mənası müstəqimdir: nəsihət, məsləhət, yol göstərmə xüsusiyyətləri mövcuddur.

İnsan cəmiyyətinin əxlaq, adət və təfəkkür tərzini təyin edən, onun mahiyyətini təşkil edən, hadisələrin yekunu kimi qavranan, həyatdan, varlıqdan alınan, kamilliyə çatan fikirlər böyük estetik yük daşıyır.

Azərbaycan atalar sözü və zərb məsəllərində əlvan və sonsuz semantik tutum xalq yaradıcılığı qaynaqlarından süzülüb gələn göz yaşı kimi duru və əbədi sulu çeşmələri xatırladır.

Başqa folklor nümunələri kimi atalar sözü və məsəllər də əsrdən-əsrə, nəsildən-nəsilə, şifahi yolla, ağızdan-ağıza keçə-keçə, cilalana-cilalana, yeni məna və məzmun qazana-qazana, zənginləşə-zənginləşə, zamanın sınaqlarından çıxa-çıxa bu günümüzə gəlib çatmışdır. Atalar sözü və məsəllər folklorun ən fəal janrıdır. Çox zaman silah rolu oynayır. Atalar sözü və məsəllər hər bir əhvalatın, hadisənin mənzərəsini yaradır, onu əyaniləşdirir, sözün təsir dairəsini qat-qat artırır. Buna görədir ki, qədim yazılı abidələrimizdən, o cümlədən "Kitabi-Dədə Qorqud"dan, Nizami "Xəmsə"sindən üzü bəri bütün sayılan-seçilən şair və yazıçılarımız öz əsərlərində atalar sözü və məsəllərdən yerli-yerində istifadə etmişlər. Həmin xalq inciləri bədii əsərlərin dəyərini artırmış, dilinə gözəllik gətirmiş, onu xalqın gəzəl söz abidələri sırasına qaldırmışdır.

Xalqın həyat təcrübəsini dayaq tutan, ondan güc alan atalar sözü və məsəllər yalnız nəsihət verməklə öz işini tamamlamır, əksinə, insana yol göstərir, gələcəkdə çətinlik çəkməyi öyrədir. İnsan ağlının gözü olan bu atalar sözü və məsəllər çox şeyi öyrədir, həyatın müsbət tərəflərini işıqlandırır, sabaha gedən yolu göstərir.

Hər bir atalar sözündə bir kitablıq fikir, məlumat xəzinəsi vardır. Atalar sözü və məsəllərimiz əsrlərin, minillərin zülmətini yarıb keçmiş, öz bədii təravətini,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 218-224*
məzmun siqlətini az da olsa itirməmiş, ruhən mənəviyyatımıza yaxın olan müqəddəs kəlamları ilə, bu gün də ömrümüzün mənasını işıqlandırmağa qadir olduğunu sübuta yetirmişdir.

Atalar sözünün bədiiliyi, onlarda olan ictimai, təbii aləmin real hadisələrinin obrazlı sürətdə ifadə olunması ilə müəyyənləşir. Atalar sözü, hər şeydən əvvəl, xalq dilinin obrazlı ifadələridir. Onların əhatə dairəsi olduqca genişdir.

Atalar sözünün bədiliyyini təmin edən amillərdən biri və mühümü dildir. Ədəbi dilin mənbəyi olan, canlı xalq dilinin bütün incəliklərini, üslub və ifadə gözəlliklərini atalar sözlərində tapmaq mümkündür.

Atalar sözləri xalq ədəbiyyatının başqa növlərinə nisbətən daha çoxcəhətlidir. Bunlar demək olar ki, həyatın bütün sahələrinə aid olurlar. Bu cür geniş əhatə dairəsinini səbəbi odur ki, həm ibtidai bəşər cəmiyyətinin üzvləri, həm də daha sonra cəmiyyətin siniflərə parçalandığı dövrdə əməkçi xalq atalar sözlərinin əsas yaradıcısı olmuşdur. Demək, ictimai-tarixi hadisələrin şahidləri, iştirakçıları çox olduğu üçündür ki, onların ifadələri də miqdarca çox, mövzu etibarı ilə isə müxtəlifdir.

Atalar sözlərinin ən böyük mənbəyi bilavasitə həyatdır. Təbii, ictimai- tarixi hadisələrin dərk edilməsi və xalqın bu hadisələrə qarşı münasibətinin ifadəsi atalar sözlərinin böyük əksəriyyətini yaradan əsas mənbədir.

Atalar sözləri bir yaradıcılıq məhsulu olmaq ilə heç bir bağlı həqiqəti açmır, əksinə, kəşv edilmiş həqiqətləri yüksək bədii surətlə ifadə edir. Mövcud olan həqiqətlərin hər hansı şəkildə ifadə edilməsi isə həyatın müşahidə və sınaqlarından doğur. Başqa sözlə desək, atalar sözü müşahidə və sınaq yolu ilə dərk edilmiş bu və ya digər gerçəkliyin ifadə vasitələrindən biridir.

Atalar sözlərinin məzmununa diqqətlə yanaşdıqda onların müşahidə və ya sınaq əsasında yaranmış olduqlarını aydınlaşdırmaq mümkün olur. Məsələn:

"Oldu ilə öldüyə çarə yoxdur", "Ağacdan maşa olmaz".

Bu atalar sözlərinin birincisi də öz mənşəyini müşahidədən, ikincisi isə sınaqdan almışdır. Bizcə, birinci misaldakı "oldu" məvhumu təbiətin əzəli və zəruri qanunu deməkdir. Bunu insan müşahidə yolu ilə dərk etmiş və bu sahəyə sınaq tətbiq etmənin mümkün olmadığı üzündən "Oldu ilə öldüyə çarə yoxdur" qənaətinə gəlmişdir.

"Ağacdan maşa olmaz" atalar söğzü isə öz mənşəyi etibarı ilə sınağa əsaslanır. Şübhəsiz ki, ibtidai insan metal alətlərin kəşfindən əvvəlki dövrlərdə, odla rəftarında ağacdan maşa kimi istifadə etmişdir. Bu az faydalı olsa da, mümkün olan işdir. Lakin bu işdə metalın üstünlüyü ağacı eyni vəzifədən kənara atmışdır.

Bəllidir ki, atalar sözünün əməli vəzifəsi öz məzmununda ifadə etdiyi bir hadisə ilə ona oxşar ikinci bir hadisəni müqayisə edib hökm verməkdən ibarətdir.

Atalar sözü və məsəllərimizin böyük bir qismi öz mənbəyini xalq şerindən alır. Bu, şerin çox yayılmış növü olan laylay, mahnı, bayatı və ağıların atalar sözü ilə qarşılıqlı təsir dairəsi daha geniş və bu təsirin nəticəsi daha səmərəlidir. Layla ilə başlayan, ağı ilə bitən, insan ömrünü mahnı və bayatı ilə müşayiət edən xalq şeri, atalar sözü mündəricəsinin kəmiyyət və keyfiyyətində böyük rol oynamışdır. Bu şerlərdə olan oforizmlər, demək olar ki, sürətlə və çox zaman öz şəkillərini və

məzmunlarını dəyişmədən atalar sozünün tərkib hissəsi olurlar. Buna görə də laylay, mahnı, bayatı, qoşma və dastanlardan alınmış parçaların müstəqil atalar sözü kimi işləndiyinə tez-tez təsadüf etmək mümkündür.

Bala dadı, bal dadı,
Bala adam aldadı.
Şirini şirin olur,
Acısı da bal dadı.

Laylay və ya beşikbaşından birinci misra alınaraq "Bala dadı, bal dadı" şəklində atalar sözü sırasına daxil olmuşdur.

Məlum olduğu üzrə dastanlar və xalq şerləri əsasən aşıqlar, yəni müəyyən peşəkarlar tərəfindən icra edildiyi halda, atalar sözü və məsəllər bütün xalq tərəfindən yaradılır və istifadə edilir.

İnsan gündəlik həyatında üz-üzə gəldiyi müxtəlif hadisə və təbii zərurətlərə öz münasibətini bildirmək üçün tarixin hansı mərhələsində isə yaranmış, eyni və ya bənzər hadisələrin ifadəsi olan atalar sözü və məsəllərdən istifadə etmişdir. Beləliklə, söz "qanadlanmış", "səpələnmiş", ağızdan-ağıza düşüb yaşamış siyasi və bədii ədəbiyyatda da gözəl ifadə vasitəsi olmuşdur.

Atalar sözü və məsəllər zəhmətkeş xalqın bütün həyatı, ictimai-tarixi təcrübəsini nümunəvi bir sürətdə ifadə edir. Məlum olduğu kimi, xalq ədəbiyyatı yalnız bir sinfin, təbəqənin yaradıcılıq kitabı deyildir. Bu ədəbiyyat "açıq kitabdır". Hər sinif, təbəqə, öz arzusunu, dünyagörüşünü bu kitabda əks etdirir. Ona görə də folklorda bu və ya başqa məsələ haqqında həm mütərəqqi, həm də mürtəce dünyagörüşə təsadüf olunur.

Xalqın təfəkkür tarixinin inkişaf mərhələsində türk xalqlarının qaynayıb – qarışma prosesini, leksik-semantik eyniyyətin səbəblərini bəşər mədəniyyətinə, xalqın mənəvi-estetik görüşlərinin formalaşmasına göstərdiyi qüdrətli təsiri aydınlaşdırmaq, ilk fəlsəfi görüşlərin inkişaf pilləsini, müəyyənləşdirmək, ictimai şüurun forması kimi bədii və estetik təfəkkür arasında üzvü bağlılığın olduğunu aydınlaşdırmaq üçün atalar sözü və zərb məsəllərə müraciət etmək zəruridir.

Ümumxalq Azərbaycan dilində dialektlər də özünəməxsus yer tutur: lakin atalar sözü və məsəllərin semantik gücü daha çox canlı xalq dilində olan ümumişlək sözlərə meyl edir, tərkibindəki leksik vahidlər semantikasına xələl gətirmədən dialekt sözlərlə də işlənə bilər. Bununla belə, dialekt sözləri adlandıran bu leksik vahidlər hələ Mahmud Kaşkarinin "Divani-lüğət-it türk" əsərində işlənmişdir. Əslində bunlar dialekt sözləri yox, abidələrdə işlənən və öz izini dialektlərdə saxlayan sözlər kimi təqdim edilməlidir.

Məsələn:

"Gənəşikli don gen gələr", "Məsləhətli don gen gələr".

Bunu da demək lazımdır ki, dialektlər və ədəbi dildə olan atalar sözü və zərb məsəllər arasında kəskin sədd yoxdur, onlar da dialektlərdə olduğu kimi, ya müəyyən fonetik fərqlə işlənir, semantik tutumu isə dəyişməz qalır.

Azərbaycan şifahi xalq ədəbiyyatının başqa janrlarda olduğu kimi, atalar sözü və zərb məsəllərdə də bəşər bədii fikrinin inkişafı, onun dini, əxlaqi, hüquqi

anlayışları, məişət tərzi öz əksini tapır və bu xüsusiyyətlər xalqın mənəviyyatının formalaşmasını səciyyələndirən amillərdən hesab olunur.

Bütün qeyd edilən xüsusiyyətlər Azərbaycan dilinin rəngarəng ifadə imkanlarına malik olduğunu və bu imkanlar içərisində atalar sözü və xalq məsəllərinin xüsusi çəkisi olduğunu, xüsusi mövqe tutduğunu, söyləməyə imkan verir. Atalar sözü və məsəllər min illər keçsə də xalqımızm şüurunda, hafızəsində yaşayacaqdır.

Atalar sözünün, həqiqətən hər biri bir incidir. Xalq bunları yüzüllər boyu yaratmış, yaşatmış, bu gün də yaşadır. Atalar sözləri həqiqətən ipə-sapa düzülməmişdir, ağızdan-ağıza keçir, dildən-dilə gəzir, söz sərrafları, müdrik babalar, ağbirçək nənələr, el-oba bu incilərin yeni gözəl nümunələrini yaradır, bu zəka və söz sənətini daim cavan saxlayırlar. Bu inciləri nə qədər toplayırsansa topla, sonu nəhayəti yoxdur, gah bu kənddə, gah o qəsəbədə, gah bir məclisdə və ya söhbətdə elə bir inciyə rast gəlirsən, elə bir hikmətli sözü eşidirsən ki, dərin mənaya, az sözdəki böyük ifadəyə, yığcam ifadədəki böyük həqiqətə heyran qalırsan. Bu tapıntıya sevinir, həm də fikirləşirsən ki, təmsil etdiyin xalq nə qədər istedadlı, nə qədər ağıllı, nə qədər böyük hikmət sahibidir.

Atalar deyib ki, "Biri qızıl gülü, biri də bənövşəni sevər". Adam var ki, qızılı, mirvarini, müxtəlif qaş-daşı yığıb sandıqlara doldurur, onların əsiridir. Mənim incim də, mirvarim də atalar sözüdür.

Dilin müxtəlif təzahür formaları obyektiv varlığın bütün sahələrini əks etdirir. Dil min illərlə yaşayır, xalqların keçmişi haqqında danışa bilən tarixi sənəd əhəmiyyəti kəsb edir. O, xalqlarm tarixinin büllur aynasıdır.

Yazılı abidələrdən biri də "Kitabi-Dədə Qorqud" dastanlarıdır. Əsərdə, xüsusilə müqəddimədə atalar sözü və zərb məsəllərin miqdarı son dərəcə çox olduğu üçün onu bir növ atalar sözləri lüğəti adlandırmaq mümkündür. Doğrudur, onların bəzilərinin formaları, sintaktik quruluşu, mənası öz işləklik xüsusiyyətini ya zəifləmiş, ya diaektlərə keçmiş, ya da tamamilə itmişdir; lakin bəziləri indi də dilimizdə bədii yetkinlik nümunəsi kimi yada gəlməz uzaq keçmişlərdən soraq verən çoxəsrli səciyyəsi daşıyır.

V.Vəliyev atalar sözü və zərb məsəlləri izah edərkən onların bir çoxunun xalq ədəbiyyatının epik və lirik janrlarından törədiyini qeyd edir. Müəllif bir də bunu göstərir ki, bəzi mövcud atalar sözü və zərb məsəllər arasında nağıl, rəvayət və lətifə düzəldilir, ibrətamiz nəticə bir cümlədə yekunlaşır, ümumiləşir və atalar sözlərinə uyğun paralellər yaranır.

Atalar sözü və zərb məsəllərin tədqiqi üzərində aparılan bu müşahidədən aydın olur ki, hər kitab, tədqiqat əsəri atalar sözü və zərb məsəllərin müəyyən xüsusiyyətlərini araşdırmışdır.

Xalqın təfəkkür tarixinin inkişaf mərhələlərində türk xalqlarının qaynayıb-qarışma prosesini, leksik-semantik eyniyyətin səbələrini, bəşər mədəniyyətinə, xalqın mənəvi-estetik görüşlərinin formalaşmasına göstərdiyi qüdrətli təsiri aydınlaşdırmaq, ilk fəlsəfi görüşlərin inkişaf pilləsini müəyyənləşdirmək, ictimai şüurun forması kimi

bədii və estetik təfəkkür arasında üzvi bağlılığın olduğunu aydınlaşdırmaq üçün, irəlidə deyildiyi kimi, atalar sözü və zərb məsəllərə müraciət etmək zəruridir.

**Ədəbiyyat:**

1. Atalar sözü (Toplayanı Əbülqasım Hüsevnzadə), Bakı, "Yazıçı", 1985
2. Vaqif Vəliyev. "Azərbaycan şifahi xalq ədəbiyyatı, ADU nəşriyyatı, Bakı, 1970
3. Sədnik Paşa Pirsultanlı. "Heca vəznli şeir və mənzum ata sözləri". Gəncə, "Əsgəroğlu", 2001
4. "Xalqın söz xəzinəsi" (tərtib edəni. Paşa Əfəndiyev), Bakı, "Maarif",1985
5. İdris İbrahimov. Atalar sözü və məsəllər, /Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, Azərb. EAN, Bakı, 1961.
6. Müdrik sözlər /tərtibçilər, Q. Beqdeli, Q. Süleymanzadə, İ. Sasani/, Bakı, "Yazıçı", 1979.

## XALQ DİLİNİN OBRAZLI İFADƏSİNDƏ ATALAR SÖZÜ VƏ MƏSƏLLƏRİN ƏHƏMİYYƏTİ

Atalar sözünün bədiiliyi, onlarda olan ictimai, təbii aləmin real hadisələrinin obrazlı sürətdə ifadə olunması ilə müəyyənləşir. Atalar sözü, hər şeydən əvvəl, xalq dilinin obrazlı ifadələridir. Onların əhatə dairəsi olduqca genişdir.

Atalar sözünün bədiliyyini təmin edən amillərdən biri və mühümü dildir. Ədəbi dilin mənbəyi olan, canlı xalq dilinin bütün incəliklərini, üslub və ifadə gözəlliklərini atalar sözlərində tapmaq mümkündür.

Sözügedən folklor nümunələri xalq ədəbiyyatının başqa növlərinə nisbətən daha çoxcəhətlidir. Bunlar demək olar ki, həyatın bütün sahələrinə aid olurlar. Bu cür geniş əhatə dairəsinini səbəbi odur ki, həm ibtidai bəşər cəmiyyətinin üzvləri, həm də daha sonra cəmiyyətin siniflərə parçalandığı dövrdə əməkçi xalq atalar sözlərinin əsas yaradıcısı olmuşdur. Demək, ictimai-tarixi hadisələrin şahidləri, iştirakçıları çox olduğu üçündür ki, onların ifadələri də miqdarca çox, mövzu etibarı ilə isə müxtəlifdir.

Şifahi xalq ədəbiyyatının bu növünün ən böyük mənbəyi bilavasitə həyatdır. Təbii, ictimai - tarixi hadisələrin dərk edilməsi və xalqın bu hadisələrə qarşı münasibətinin ifadəsi atalar sözlərinin böyük əksəriyyətini yaradan əsas mənbədir.

Atalar sözləri bir yaradıcılıq məhsulu olmaq ilə heç bir bağlı həqiqəti açmır, əksinə, kəşv edilmiş həqiqətləri yüksək bədii surətlə ifadə edir. Mövcud olan həqiqətlərin hər hansı şəkildə ifadə edilməsi isə həyatın müşahidə və sınaqlarından doğur. Başqa sözlə desək, atalar sözü müşahidə və sınaq yolu ilə dərk edilmiş bu və ya digər gerçəkliyin ifadə vasitələrindən biridir.

**Summary**

**THE IMPORTANCE OF PROVERBS IN THE FIGURATIVE EXPRESSION OF THE VERBAL LANGUAGE**

**Hd.tch.P.E.Guliyeva**

The artistry of proverbs is determined by the figurative expression of the real events of the social and natural world in them. Proverbs are, first of all, figurative expressions of the folk language. Their scope is quite wide.

Language is one of the most important factors that ensure the art of proverbs. It is possible to find all the intricacies of the living folk language, the beauty of style and expression, in proverbs, which is the source of the literary language.

The mentioned examples of folklore are more diverse than other types of folk literature. They apply to almost all areas of life. The reason for such a wide coverage is that both the members of the primitive human society and the working people in the period when the society was divided into classes were the main creators of proverbs. That is, because there are many witnesses and participants of social-historical events, their statements are numerous and diverse in terms of subject matter.

The greatest source of this type of oral folk literature is direct life. The understanding of natural, social and historical events and the expression of people's attitude towards these events is the main source that creates the vast majority of proverbs.

Proverbs do not reveal any truth about being a product of creativity, but instead express discovered truths in a highly artistic way. Any expression of the existing truths is born from the observations and trials of life. In other words, a proverb is one of the means of expressing this or that reality, understood through observation and testing.

**Резюме**

**ЗНАЧЕНИЕ ПОСЛОВИЦ И ПОВЕЧНИКОВ В ОБРАЗНОМ ВЫРАЖЕНИИ ГЛАВНОГО ЯЗЫКА**

**Ст.пр.П.Е.Кулиева**

Художественность пословиц определяется образным выражением в них реальных событий социального и природного мира. Пословицы – это, прежде всего, образные выражения народного языка. Область их применения довольно широка.

Язык является одним из важнейших факторов, обеспечивающих искусство пословиц. В пословицах, являющихся источником литературного языка, можно найти всю тонкость живого народного языка, красоту стиля и выразительности.

Упомянутые образцы фольклора более разнообразны, чем другие виды народной литературы. Они применимы практически ко всем сферам жизни. Причина такого широкого охвата в том, что основными создателями пословиц были как члены первобытного человеческого общества, так и трудящиеся в период разделения общества на сословия. То есть, поскольку свидетелей и

участников общественно-исторических событий много, их высказывания многочисленны и разнообразны по тематике.

Величайшим источником этого вида устной народной литературы является непосредственная жизнь. Понимание природных, социальных и исторических событий и выражение отношения людей к этим событиям является основным источником, создающим подавляющее большинство пословиц.

Пословицы не раскрывают никакой истины о том, что они являются продуктом творчества, а выражают открытые истины в высокохудожественной форме. Любое выражение существующих истин рождается из наблюдений и жизненных испытаний. Иными словами, пословица – это одно из средств выражения той или иной действительности, понимаемой посредством наблюдения и проверки.

**Rəyçi: dos. Axundova Nəzmiyə M.q.**